*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 1* *ISSN 2663-4414*
*Səhifə: 77-84* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.1.77*

# 1950-Cİ İLLƏR VƏ ONDAN SONRAKI MƏRHƏLƏDƏ TÜRKİYƏ SATİRİK MƏTBUATINDA "MOLLA NƏSRƏDDİN" ƏNƏNƏLƏRİ

**Gülbəniz Babayeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: gulbeniz-babayeva@mail.ru

**Xülasə.** Məqalədə 150 ildən artıq tarixi bir yol keçən Türkiyə satirik mətbuatının 50-ci illərdən sonra yeni mərhələyə daxil olması və bu dövrdə nəşr edilən satirik dərgilərdə "Molla Nəsrəddin" ənənələrinin davam etdirilməsindən bəhs olunur. Azərbaycanın ilk satirik mətbuat orqanının Türkiyədə nəşr olunan çoxsaylı dərgilərin satirik üslubuna, ifadə tərzinə, mövzu və problematikasına təsiri məsələləri diqqət mərkəzində saxlanılır. 1950-ci illərdə satirik mətbuat Türkiyədə baş verən ictimai-siyasi hadisələrin önündə getmiş, müxtəlif partiyaların mövqeyindən çıxış etmiş, iqtidarla xalq arasında tənzimləyici rol oynamışdır. Bu dövrdə nəşr edilən "Karakedi", "Tef", "Dolmuş", "Qırğır", "Akbaba", "Temmuz" və başqa satirik dərgilər "Molla Nəsrəddin" jurnalının əsas strateji xəttini davam etdirmiş, xalqın istək və arzularının ifadəçisinə çevrilmişdir. Bu gün də fəaliyyətini davam etdirən "Leman", "Penguen", "Uykusuz" kimi dərgilər çağdaş Türkiyədə gedən prosesləri ardıcıl və sistemli şəkildə izləyir, çoxsaylı oxucuları ölkə həyatında hökm sürən real hadisələrdən xəbərdar edir və geniş ictimaiyyəti mövcud nöqsanların aradan qaldırılmasında fəal mübarizəyə səsləyir.
**Açar sözlər:** Türkiyə satirik mətbuatı, "Molla Nəsrəddin" jurnalı, "Akbaba", "Karakedi", "Uykusuz" dərgisi

**Məqalə tarixçəsi:** göndərilib – 16.02.2023; qəbul edilib – 01.03.2023

# "MOLLA NASRADDIN" TRADITIONS IN TURKISH SATIRICAL PRESS DURİNG THE 1950s AND LATER

**Gulbaniz Babayeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: gulbeniz-babayeva@mail.ru

**Abstract.** In the article it is dealt with the entering a new stage after the 1950s of the Turkish satirical press that passed a historical path of more than 150 years and continuation of the "Molla Nasraddin" traditions in the satirical magazines published during this period. The issues of influence of the first satirical press of Azerbaijan on the satirical style, expression style, content and problematic of numerous magazines published in Turkey is kept in the spotlight. Satirical press in the 1950s was at the forefront of social and political events happened in Turkey, supported the positions of different parties and played a regulatory role between the state and the people. Satirical journals such as "Karakedi", "Tef", "Dolmush", "Girghir", "Akbaba", "Temmuz" and others continued the main path of "Molla Nasraddin" magazine and expressed the desires and wishes of the people. The journals that continue to be published today such as "Leman", "Penguen" and "Uykusuz" follow the processes in modern Turkey in a consistent and systematic way, informs many readers about real events taking

place in the life of the country and calls on the general public to active fight for the elimination of existing deficiencies.
**Keywords:** Turkish satirical press, “Molla Nasraddin” magazine, “Akbaba”, “Karakedi”, “Uykusuz” magazine

**Article history:** received − 16.02.2023; accepted − 01.03.2023

## Giriş / *Introduction*

1950-ci il Demokratik Partiyanın Cümhuriyyət Xalq Partiyasını məğlub etdiyi və türk demokratiyasının qalib gəldiyi mühüm bir mərhələdir. Bu dönəm Demokratik Partiyanın modernləşdirmə ideologiyasını həyata keçirməyə çalışması və yaxud özünü həmin proyektə uyğunlaşdırması ilə yaddaqalandır. Demokratik Partiya hakimiyyətin başlangıcında satirik mətbuat üzərindəki basqıların aradan qaldırılması istiqamətində məqsədyönlü işlər aparmış və Cümhuriyyət Xalq Partiyası ilə müəyyən razılığa gəlmişdir. Bunun nəticəsi idi ki, “Karakedi” adlı mizah dərgisi Demokratik Partiyanın siyasətini dəstəkləmiş, öz səhifələrində Cümhuriyyət Xalq Partiyasını tənqid edən həqarət dolu satirik yazılara və karikaturalara yer vermişdir. 1952-ci ildə yenidən yayımlanmağa başlayan “Akbaba” dərgisi də öncə dəstəklədiyi Cümhuriyyət Xalq Partiyasını iqtidardan uzaqlaşdıqdan sonra kəskin şəkildə tənqid etməyə başlamışdır. Bu dönəmdə “Karakedi” və “Akbaba” dərgisi ilə yanaşı, “Tef” və “Dolmuş” kimi iki önəmli satirik dərgi də fəaliyyət göstərirdi. Eyni zamanda dövrün böyük satirik yazıçıları Əziz Nesin, Rıfat İlğaz,Yalçın Kaya, Bülent Oranın satirik və yumoristik hekayələri də mətbuatın və yeni ədəbiyyatın formalaşmasında, ictimai və sosial həyatın real təsvirində mühüm rol oynayırdı.

Bu mərhələdə diqqətçəkən əsas məqamlardan biri də satirik nəsrlə yanaşı, satirik şeirin də meydana çıxmasıdır. Xüsusilə satirik poeziyanın ağırlığı Garipçilərin (Qəribə – G.B.) üzərinə düşürdü. Orhan Vəlinin və sənət dostlarının başlatdığı bu hərəkatın üzvləri poeziyanın satirik yöndə inkişafını diqqət mərkəzində saxlayır və türk şairlərinin yaradıcılığına güclü təsir göstərirdi. Türkiyə ədəbiyyatında başlanan bu yeni dalğa savaşdan sonra bütün Avropanı sarmışdır. Satirik poeziyada özünü göstərən novatorluqla yanaşı, ənənəvi həcv, daşlama ədəbiyyatı da mövcud olmuşdur ki, bu janrın əsas ağırlığını Əziz Nesin və Ümit Yaşar öz üzərinə götürmüşdür. Ümumiyyətlə, 1950-1960-cı illər Türkiyə satirik ədəbiyyatının və mətbuatının elə bir inkişaf mərhələsidir ki, çağdaş türk satirası məhz bu bünövrə üzərində qərarlaşmış və formalaşmışdır. Öngören haqlı olaraq, bu mərhələni “mizahımız için altın on yıl” (Öngören, 1998, s. 96) adlandırmışdır.

Türk satirik mətbuatında “Tef” dərgisi də “Molla Nəsrəddin”ənənələrini yaşadan jurnallardan biridir. Dərgi 1954-cü ildən 1956-cı ilədək, iki il nəşr olunduqdan sonra bağlanmış və 27 may 1960-cı ildə yenidən nəşrə başlamışdır. “Tef” “Akbaba”nın tam əksinə olan bir yayım həyatı yaşamış, həm karikaturalarında, həm də satirik yazılarında fərqli bir yol tutmuşdur. Sosialist baxışa malik olan satirik dərgidə Oğuz Aral, Turhan Selcuq, Ferruh Doğan kimi sənətkarlar çalışmış, sonralar onlar jurnalın əsas yazarlarına çevrilmişlər.

## Əsas hissə / *Main Part*

27 may 1960-cı il Demokratik Partiya iqtidarının devrilməsi Türkiyə xalqının həyatında tarixi dönəm nöqtəsi olmuşdur. Şübhəsiz, ölkə daxilində baş verən ictimai-siyasi və sosial situasiyalar satirik mətbuata təsirsiz ötüşməmişdir. ”Siyasi dəyişmələrin təsiri ilə 1960-1970 aralığında satirik dərgilərin sayında gözlə görüləcək dərəcədə nəzərəçarpan azalma diqqət çəkməkdədir. Yusif Ziya Ortaçın ölümündən sonra aralarında Əziz Nesin, Rıfat İlğaz kimi önəmli satirik yazarların da olduğu “Akbaba” əvvəlkindən daha çox oxucu sayını artıraraq, 1977-ci ilə qədər öz fəaliyyətini davam etdirmişdir. Əziz Nesinin 1962-ci ildə yayınladığı “Zübük” uzunömürlü dərgi olmamışdır. 1967-ci ilin oktyabrında yayınlanmağa başlayan “Papağan” isə satirik tərzinə görə “Akbaba”ya bənzəməklə bərabər, sol

yönümlü bir dönəm dərgisi idi” (Kayalı, 1994, s. 105-106).

1970-1980-ci illərin satirası kənddən şəhərə köçün başlanması və formalaşması ilə xarakterizə olunur. Bu dönəmdə televiziyanın geniş bir şəkildə yayıma başlaması da satiraya təsir göstərən amillərdən biri kimi qabarıq nəzərə çarpır.

Apaydın bu dönəmdə yaranan satirik mətbuatın əsas məqamlarını ön plana çəkir və 5 iyun 1972-ci ildə nəşrə başlayan “Salata” ilə birlikdə türk satirik mətbuatındakı çizgi yazı ənənəsinin çizginin lehinə dəyişdiyini göstərir. “Salata”da Suavi Süalpın ən dəyərli satirik əsərləri yer almışdır. Apaydın bu dərgidən sonra Suavi Süalp cizgisinin davamı xüsusiyyətini daşıyan, türk satirik mətbuatının önəmli səhifələrindən birini yazan “Qırğır” dərgisindən bəhs edərək yazır: “İlk olaraq “Günaydın” qəzetində Oğuz Aralın hazırladığı bir satira səhifəsinin adı olan “Qırğır” 1972-ci ilin avqustunda həftəlik dərgi kimi fəaliyyətə başlamışdır. 1990-cı ilə qədər Oğuz Aralın naşirliyi ilə dərc edilən “Qırğır” “Akbaba” ənənələrini yıxmış, kənddən şəhərə köçən, şəhər həyatına uyğunlaşa bilməyən insanların yaşam tərzini satirik bir dillə təmsil emişdir. Bu səbəbdən də yazılı satiraya deyil, çizgi satiraya üstünlük vermişdir (Apaydın, 2007, s. 336). “Qırğır” yeni satirik ədəbi məktəbin əsasını qoydu. Qısa müddətdə yüksək tirajlara çatan bu satirik dərginin ən önəmli özəlliyindən biri də onun çağdaş dövrdə nəşr olunan bir çox satirik dərgilərin yazar və rəssamlarını yetişdirməsidir. Hələ də çıxmaqda davam edən “Leman” (1991), “Penguen” (2002), “Uykusuz” (2007) və hal-hazırda fəaliyyətini dayandıran “Çarşaf” (1976), “Limon” (1985), “Hıbır” (1989), “Pişmiş Kelle” (1990) kimi dərgilər “Qırğır”dan törəmişdir. Bu mətbuat orqanı 1922-1991-ci illərdə Sovetlər Birliyində nəşr edilən “Krokodil”dən sonra beynəlxalq aləmdə ən çox satılan satirik dərgi kimi şöhrətlənmişdir. Sarı və qara rənglər fonunda yer alan məqalələr mövzu və ideya baxımından rəngarəng idi. Dərgi 500 minə kimi böyük tirajla nəşr edilmiş, onun yazarları sonralar bir çox mətbuat orqanlarının ortaya çıxmasında və şöhrət qazanmasında mühüm rol oynamışlar. 1989-cu ildən etibarən “Qırğır”ın əfsanəvi heyəti dağılmağa başlamışdır. Lakin çağdaş dövrdə əvvəlki şöhrətini o qədər də qoruya bilməyən dərgi zəif şəkildə olsa da, fəaliyyətini davam etdirir.

12 iyul 1980-ci il çevrilişi Türkiyə ictimaiyyətinin siyasi və sosial həyatının bütün sahələrində olduğu kimi, satirik mətbuata da öz təsirini göstərmişdir. Ölkədə baş verən bu hadisə bütün partiyaların, o cümlədən CHP-nin qapadılmasına gətirib çıxarmışdır. Danışma məclisi qurulur, yeni anayasa hazırlanır, partiyalar və seçki qanunları yenidən düzənlənir. “1980-1990-cı illər dönəmi Türkiyədə demokratiyanın çevrilişlə yıxılması və ardından demokratik bir quruluşu yenidən öz içərisinə alması ilə xarakterizə olunur” (Öngören, 1998, s. 106).

1980-ci ildən sonra türk satirası ictimai-siyasi həyatda baş verən dəyişikliklərdən təsirlənərək formalaşmış və müxtəlif çeşidlərdə ortaya çıxmışdır. Bu mərhələdə satirada posmodernizmin təsirini də aydın görmək mümkündür. “Hasan Bülent Kahraman da 1990-cı illərdən sonra satirik ədəbiyyat və mətbuatda posmodernizmin təsirinin olduğunu diqqət mərkəzində saxlamışdı” (Kahraman, 2005, s. 33-41).

Apaydın 1990-cı illərin satirik dərgiləri ilə əlaqədar olaraq “satirik nəşrlər “Qırğır”ın davamı kimi görünməklə yanaşı, 1990-cı illərin satirik dərgilərində artıq yenı fikir və düşüncə tərzi hökm sürür, dövləti və ictimaiyyəti bütünlüklə əhatə etmək iddiasında olan mətbuat yayınının mövcudluğu nəzərə çarpır” (Apaydın, 2007, s. 337), – deməklə türk satirik mətbuatındakı yenilik və dəyişmələri doğru şərh edir. Bununla yanaşı, satirik dərgilərdə çizginin hakimiyyətinin davam etdiyini bildirən Apaydın çağdaş satira anlayışı ilə absurd satiranın yenidən kəşf edilməsi fikrini də ortaya çıxarmışdır.

1990-2000-ci illər arasında türk satirası yenə də televiziya ətrafında birləşməyə və formalaşmağa başlamışdır. Bu mərhələdə televiziyada çoxkanallı dönəmə keçirilməsi ilə birlikdə özəl kanallar reklam şirkətlərinin rolunu böyütmək üçün satiradan yararlanmaq istəmişlər. Eyni zamanda film xüsusiyyətli və teatr dəstəkli yerli komediyalar, yumoristik seriallar, xarici cizgi filmləri izləyicilərə təqdim edilmişdir. “Yeşilcam”ın bütün əski komediya filmləri dövriyyədən çıxarılır, Kemal Sunalın komediyaları gecə-gündüz onların yerini tutur. Yeni komediya yazarları meydana çıxır, satirik hekayə yazarları televiziya serialları üçün ssenarilər yazmağa istiqamətləndirilir. Film aləmində yaşanan durğunluq səbəbindən bir çox rejissor fəaliyyətini televiziyada davam etdirir. Bu illərdə televiziyalar karikaturanın inkişafına daha çox önəm verir və ondan bol-bol yararlanırlar. Televiziya kanallarının

sayının artmasında, yumoristik və satirik serialların çəkilişində böyük bir canlanma müşahidə olunur. Çağdaş dövrdə də Türkiyədə bu ənənə davam etdirilir. Ancaq bu gün televiziya ilə yanaşı, internetin də təsiri danılmazdır. İnternet üzərindən milyonlarca sosial müdafiə istifadəçilərinə çatdırılan çoxçeşidli məlumatlarda ictimai-siyasi, ədəbi-mədəni həyatda baş verən yeniliklərlə paralel olaraq, həm də insanları güldürmək, əyləndirmək, ən başlıcası isə düşündürmək üçün satiradan bir ədəbi forma kimi geniş istifadə olunur.

Tənzimat dövründən başlayaraq satirik dərgi və qəzetlərin yayılması mətbəələr vasitəsi ilə həyata keçirilmişdir. "Nebi Özdemir satirik mətbuatın və mədəniyyətin (karikatura, teatr, radio-televiziya oyunları və s.) inkişafı ilə Qərb yönümlü Türk ədəbiyyatının yaranması, formalaşması və demokratik bir mərhələyə çatması arasında önəmli bir bağ olduğunu vurğulayır" (Özdemir, 2008, s. 56).

Türkiyədə satirik qəzet və jurnallar, əsasən, İstanbulda nəşr edilsə də, digər bölgələrdə yayımlanan mətbuat orqanları da vardır. Bu baxımdan XX əsrin ortalarından başlayaraq Ərzurumda nəşrə başlayan "Saksağan" (1958), "Merhaba Qıdık Efendi" (1960), "Homonqolos" (1970), "Temmuz" (1996) və "Fırfırık" (2003) adlı satirik mətbuat orqanları da öz yazı tərzi, mövzu rəngarəngliyi və çoxçeşidliyi ilə diqqəti cəlb edir.

23 Temmuz 1996-cı ildə nəşrə başlayan "Temmuz" dərgisi adını Ərzurum Konqresinin keçirildiyi tarixdən götürmüş, konqresin ildönümündə ilk sayı çapdan çıxmışdır. Dərgidə bu durum "23 Temmuz 1919/23 Temmuz 1996" şəklində verilmişdir. Hər həftənin çərşənbə günü yayımlanan dərgi bəzən 16, əksər vaxtlarda isə 20 səhifə həcmində nəşr edilmişdir. Dərginin imtiyaz sahibi və yazı işləri müdiri Recep Çakmak, haber sorumlusu Engin Kör, baş koordinator Ergin Ünaldır. Dərginin ilk sayında Muhammet Tekle, Esin Özkul, Mümtaz Akın kimi yazarların adlarına rast gəlinir. Digər saylar Recep Çakmakın özü tərəfindən yazılıb yayımlanmışdır. "Temmuz" 9 il Ərzurumda nəşr olunduqdan sonra 25 avqust 2004-cü ildən, 397-ci sayından etibarən artıq yayımını İstanbulda ofset üsulu ilə ayda bir dəfə davam etdirmişdir. Bu mərhələdə dərginin kadrları sırasında Dursun Ali Çodur, Fikret Evyar, Qani Hamutçu, Arif Sağ və Gürkan Özpekerin adlarını görmək mümkündür. Lakin "Temmuz" un İstanbul həyatı uzun sürməmiş, 400-cü sayından sonra fəaliyyətini dayandırmışdır. Dərginin bütün saylarını əhatə edən arxiv mövcud deyildir. Günümüzə qədər gəlib çatan yeganə arxiv Haci Elmalidadır ki, orada da "Temmuz"un 223 sayı göstərilir. Dərgi amatörcə (həvəskar şəkildə – G.B.) hazırlandığı üçün tarixi və sayı haqqında məlumat yoxdur. Ayrıca səhifə nömrələri də verilməmişdir.

"Temmuz" dərgisində əksini tapan yazıların çoxu satirik üslubludur. Az-az hallarda mətnlərə uyğun karikatura və fotolara rast gəlmək mümkündür. Dərgidəki bütün yazılar Recep Çakmak (Recep Re) tərəfindən qələmə alınmışdır.

"Temmuz"da dövrün aktual problemləri – siyasət, iqtisadiyyat, mədəniyyət, elm, təhsil, səhiyyə, idman və s. kimi önəmli məsələlərlə bağlı yazılara geniş yer verilmişdir. "Temmuz" dərgisində diqqətçəkən məqamlardan biri də folklor nümunələrinə öz səhifələrində geniş yer verməsidir. "Molla Nəsrəddin "jurnalında atalar sözləri, məsəllər, bayatılar, tapmacalar, nağıllar, lətifələr və s. Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələri önəmli yer tutduğu kimi, "Temmuz" dərgisində də folklorla bağlı "Erzurum fıkraları", "Erzurum manileri", "Yöresel atasözleri", "Yöresel bilmeceler", "Erzurum sözleri", "Güllebi Turandan Fıkralar", "Temmuz falı" və başqa rubrikalar əksini tapmışdır. Bu başlıq altında dərc edilən yazılarda Türkiyə xalqının zəngin el ədəbiyyatı nümunələrinə yeni prizmadan yanaşılmış, dövrün aktual problemləri satirik parodiya və perifrazlar şəklində qələmə alınmışdır. "Temmuz"un səhifələrində tanınmış sənət adamları haqqında yazılara da yer verilmişdir. Bu silsilədən olan "Haftanın Cüneyd Arkını", "Haftanın Kemal Sunalı", "Haftanın Reha Muhtarı" və başqa məlumatlar mədəniyyətlə bağlı yazılar sırasında önəmli yer tutur. Dərgidə reklamlara da yer verilmişdir. Bunlar da "Molla Nəsrəddin" də olduğu kimi, bəzən ciddi, bəzən isə satirik yöndən qələmə alınmışdır. "Temmuz" dərgisinin köşə yazılarında başlıq eyni olsa da, mövzu baxımından rəngarənglik və müxtəliflik nəzərə çarpır. Əsasən, ailə-məişət, qadın-kişi münasibətləri, qan davası cinayətləri haqqında yazılar üstünlük təşkil etsə də, şəhərin daxili problemləri, sosial və iqtisadi sahədəki çatışmazlıqlar və Ərzurumun bu ciddi məsələlərə diqqətsizliyi dərgidə satirik şəkildə əksini tapmışdır.

"Temmuz" "İdeolojisiz yaşama evet" şüarı ilə ölkənin ideoloji problemlərinə qarışmadığını bəyan etsə də, ancaq öz səhifələrində Milli Mücadilə və Türkiyə Cümhuriyyəti ilə bağlı məsələlərə yer

verdiyi aydın şəkildə görünməkdədir. 1996-2004-cü illərdə Ərzurumun, bütövlükdə Türkiyənin siyasi xəttini, siyasət adamlarını və bürokratik əngəlləri tənqid edən yazılar da satirik tərzdə dərgidə yer almışdır. Xüsusilə Türkiyənin partiya liderləri, baş nazirləri, millət vəkilləri, bələdiyyə başçıları və başqa səlahiyyətli şəxslər də satirik ittihamdan kənarda qalmamış, hətta satirik yazı və fıkralarda da onlar tənqid hədəfinə çevrilmişlər. Eyni zamanda bu şəxslər xalqın sosial həyat tərzinin pisləşməsində, su və elektrik təchizatında yol verdikləri nöqsanlara görə ifşa olunmuşlar.

Dərgidə 1999-2004-cü illərdə yerli seçkilərdə namizədlərin seçicilərlə görüşməməsi və ya çox az hallarda Ərzuruma getməsi, seçki bülletenlərinin hazırlanması prosesində partiyaların birtərəfli mövqeyi və saxtakarlığı satirik mövzuya çevrilmişdir. İctimaiyyət nümayəndələrindən daha çox valilər və onların köməkçiləri şəhəri tanımadıqları, insanların problemləri ilə maraqlanmadıqları üçün "Temmuz"un iynələyici satirik eyhamları, sərt tənqidi ilə üz-üzə qalmışlar. Siyasətçilərlə bağlı aforizmlər, lətifələr mətnlərdə geniş yer tutur. Bu siyasətçilərdən biri də Eski Genel Müdiri Nurullah Özkılıçdır. Ərzurumda su, işıq, kanalizasiya problemləri bu şəxsin timsalında Közkılıç satirik obrazı ilə tipikləşdirilmiş və tənqid hədəfinə çevrilmişdir.

Dərgidə siyasi mövzulu satirik yazılara da xeyli yer verilmişdir. Kıprıs məsələsi və Türkiyənin Avropa Birliyinə qəbul edilməsi prosesində siyasətçilərin bacarıqsızlığı, səriştəsizliyi və bununla bagli baş verən hadisələr bu səpkili tənqidi yazıların əsas mövzusu olmuşdur.

"Temmuz"da 28 fevral 1997-ci ildə ölkədə baş verən proseslərin dərgi tərəfindən geniş işıqlandırıldığını görürük. Bu dönəmdə və bundan sonrakı mərhələdə Türkiyə Silahlı Qüvvələri ilə bağlı müsbət tendensiyalı yazılar verilmişdir. Bu məlumatlar satirik səpkili deyil, əksinə, ölkənin siyasi və iqtisadi qüdrətini, gücünü göstərən yazılardır. Dərgidə siyasətçilərlə yanaşı, "Molla Nəsrəddin" jurnalında geniş yer verilən fırıldaqçı, yalançı, mənsəbpərəst din mübəlliğlərinin ifşası diqqət çəkir. İslam dininin qayda-qanunlarına, şəriət ehkamlarına zərər gətirən bu cür riyakarlar haqqında tənqidi yönümlü satirik yazılara dərgidə sıx-sıx rast gəlinir. "Molla Nəsrəddin" jurnalında xalqımızın milli bayramları – Novruz bayramı, Qurban bayramı, Ramazan bayramı haqqında xeyli yazılar dərc olunmuşdur. Bayramların gəlişi ilə bağlı sosial problemlərin qabardılması, xalqın maddi sıxıntılar içərisində yaşaması, bayramları qeyd etmək üçün lazımi ərzaqların olmaması, aclıq, səfalət içərisindəki insanların ağır yaşam tərzi və s. məsələlər eyni ilə "Temmuz" jurnalında da gündəmə gətirilmişdir. Bununla bərabər, Qurbankəsmə prosesindəki yanlışlıqlar, dini ayinlərin icrası zamanı yol verilən nöqsanlar da dərginin əsas tənqid hədəflərindən biri olmuşdur .

"Temmuz"da qadın-kişi münasibətləri ilə əlaqədar satirik yazılara və xəbərlərə də çox yer verilmişdir: "Qərb ölkələrindən gələn qadınlara Ərzurum kişisinin ikiüzlü münasibəti "Yollu Nataşanın Not Defterinden" başlıqlı silsilə yazılarda tənqid edilərkən, "Saçlarına yıldız düşmüş koparma Aytən" də qadın-kişi münasibətləri; "Namus cinayətləri"ndə qan davasına qadınların ictimai baxışı; "Hiç Kadınlar Kuma Fikriye"də yaşlı-gənc evliliyinin acınacaqlı nəticələri; "Üregim yanır-közlenirem inan seni çok sevirem"de qadın-kişi münasibətləri və ictimaiyyətin bu evlilikdən gözləntiləri; "Beyim İle Başqanı, ben onun karısıyam"da isə qadının gözündən siyasət dünyasına baxış sərgilənmişdir" (Atnur, 2016, s. 414). "Molla Nəsrəddin" jurnalının hər sayında rast gəldiyimiz qadın azadlığı problemi, elm və təhsil məsələləri "Temmuz" da da aparıcı mövzulardan biri kimi mühüm yer tutmuşdur. Elm və təhsil sahəsindəki nöqsanları, çatışmazlıqları gündəmə gətirən jurnal milli eğitim müdürü Fevzi Budakın hər dəfə fərqli bir partiyadan namizədliyini irəli sürməsini, Milli Eğitim şöbə müdirinin kitab və qəzet oxumamasını satirik dillə tənqidə məruz qoymuşdur. Tələbələrin maddi sıxıntılarla üzləşməsi, bəzən milli-əxlaqi dəyərlərdən uzaqdüşmə hallarının baş verməsi də diqqət mərkəzində saxlanılmış və tənqidə məruz qalmışdır.

Dərgidə ciddi tənqidi ittihamlarla üz-üzə qalan əsas qurumlardan biri də Atatürk Universitetidir. Rektorlar və müəllimlər, 2000 və 2004-cü ildəki rektor seçkiləri də "Temmuz" un əsas mövzusuna çevrilmişdir. Dərginin nəşr olunduğu illərdə universitetə Erol Oral və Yaşar Sütbeyaz başçılıq etmişdir. Dərgi birincini kadr məsələsində yerlibazlıqda, ikincini isə universiteti xalqdan təcrid edib uzaqlaşdırmaqda, kadr seçiminə göz yummaqda və demokratiyanı boğmaqda ittihamlandırmışdır.

"Temmuz"da səhiyyə sahəsindəki ciddi nöqsanlara da sərt münasibət bildirilmişdir. Nümune Hastanesinin timsalında Ərzurumdakı tibb ocaqları, baş həkimlər, doktorlar, əməkdaşlar satirik bir

dillə ifşa olunur. Onların insanların həyatına biganəliyi, laqeydliyi, yalnız pul qazanmaq üçün dəridən-qabıqdan çıxmaları, xəstələrə qeyri-humanist münasibətləri satirik yazıların əsas mövzularındandır. "Temmuz"da Doğu Anadolu Qazeteciler Cemiyeti, Türkiyədə özəl radio və televiziyaların həddindən artıq çoxalması və bu sahəyə nəzarətsizlik kimi məsələlər də tənqidə məruz qalmışdır.

1994-2001-ci illərdə iqtisadiyyat sahəsindəki uğursuzluqlar, inkişafa mane olan əngəllər, yatırımlarda yol verilən nöqsanlar və bütün bunların işsizliyə yol açması və Ərzurum əhalisinin başqa yerlərə köçməyə məcbur olması kimi faktlar da satirik bir dillə dərginin əsas mövzusuna çevrilmişdir. Ərzurumda ziyalı adını daşıyan, lakin məhdud dünyagörüşlü, intellektual səviyyəsi yetərincə olmayan insanlar, gündən-günə çoxalan zəif romançılar, istedadsız şairlər haqqında həcvlər də "Temmuz"da yer almışdır. Dərginin 392-ci sayında saz şairləri ilə bağlı verilmiş satirik yazıda da başlıca məqsəd istedadsız insanların geniş oxucu aiditoriyasına tanıdılması və ifşasıdır.

"Temmuz" dərgisinin əsas hədəfi Türkiyənin ictimai-siyasi həyatının, sosial vəziyyətinin, mədəni inkişaf və tərəqqisinin işıqlandırılmasıdır. Buna görə də dərgi öz ənənəsinə və məqsədinə rəğmən türk xalqının real gerçəkliklərini ardıcıl şəkildə öz səhifələrində yazıb bəyan etmişdir. Dərginin mövzuları sırasında işsizlikdən əziyyət çəkənlər, hərbi xidmətdəki övladına pul göndərməyə imkanı olmayanlar, ayağına ayaqqabı, əyninə palto ala bilməyənlər, suyu və işığı kəsilənlər, bir sözlə, yoxsul həyat və məişət tərzi yaşayan insanların tragik və tragikomik təsviri önəmli yer tutmuşdur.

Dərgidə diqqətçəkən rubrikalardan biri də "Lüğət"dir. "Temmuz" lüğətlərdə seçdikləri sözlərə yumoristik və satirik yöndən yanaşaraq, "Molla Nəsrəddin" üslubuna xas olan şərh və yozumlar verir. Məsələn, Karınca-Çalışmaq; Köpek-Vefa; At-İtaat; Eşek-Sabır; Tilki-Akıl; Ayı-Güc; İnsan-Koyun; Koyun-Hiçbiri (1996, s. 3).

"Temmuz"da xalq ədəbiyyatı nümunələrinə hər səhifədə yer verilmişdir. Ərzurum lətifələrinin tanınmış tipləri Gullebi Turan, Teyo Pehlivan və Naim Hocaya aid lətifələr, Ərzurum bilməcələri, manilər, atalar sözləri və məsəllər də dərgidə geniş şəkildə əksini tapmışdır. "Temmuz"un ideoloji xəttinin əsas məqsədi əyləndirmək, güldürmək deyil, düşündürmək, sorğulamaq, qarşılaşdırmaq, mövcud müxalif qüvvələri təslim etmək, məğlubiyyətə uğratmaq, zərərsizləşdirməkdir. Dərginin bütün yazıları başdan-ayağa ironiya və həcv üzərində qurulmamışdır. Əslində, mətndə əsas fikir bir çox məqamlarda son cümlədə, satirik bir şəkildə öz hədəf nöqtəsinə tuşlanır. Bəzən satirik eyhamlar, ironik ifadələr mətnlərin daxilində də yer alır. Belə məqamlarda Türkiyə türkcəsi ilə Ərzuruma məxsus folklor örnəkləri eyni mətndə birləşərək mətnin effektliyini və təsir gücünü artırır. Məsələn, Türkiyə türkcəsində verilən bir xəbər məlumatı Ərzurumun sözlü ədəbiyyatından alınan atalar sözü, məsəl və başqa nümunələrlə sona çataraq tamamlanır. Mətndəki müəllif qayəsi, düşündürücü fikir və ibrətamiz sonluq məhz bu ifadələrdə əksini tapır. "Temmuz" dərgisi cəmiyyətdəki bütün eyib və qüsurlara, nöqsanlara ayna tutan bir dərgidir. Bölgədə yaranan bir mətbuat orqanı olduğu üçün gülən də, tənqid hədəfi olaraq gülüş obyektinə çevrilən də elə məhz ərzurumlulardır. Oxucu tamamilə fərqli, yeni dünyanın qapısını satira yolu ilə açmaq istəyərkən bir ərzurumlu olaraq özünün də bu ortamda olduğunu hiss edər, özünə tənqidi mövqedən yanaşar və hər şeyə qarşı bir müxalifətçi dayanıqlığı göstərər. Geniş mənada bütün Türkiyənin və Ərzurumun problemlərinin aradan qaldırılması üçün mücadilə və mübarizə aparar. Bununla da, "Temmuz" nəinki Ərzurumda, eləcə də Türkiyənin ictimai-siyasi, sosial və ədəbi-mədəni həyatında baş verən hadisələri özünün prioritet mövzusuna çevirmiş və Türkiyə satirik mətbuatının çoxsaylı sırasında özünəməxsus yer tutmuşdur.

## Nəticə / *Conclusion*

Türk mizah və həcv ədəbiyyatına aid tədqiqatlar Tənzimatdan sonra daha da genişlənmişdir. Bu araşdırmalarda satirik yayımların incələnməsi, seçilmiş mətnlərə yer verilməsi, dərgilərin qarşısında duran problemlər hər hansı bir satirik mətbuatın ideya xəttini müəyyənləşdirmək baxımından əhəmiyyətlidir. Tənzimat dövrü və Məşrutiyyətdən sonra nəşr edilən "Diyojen", "Cem", "Kalem" ,"Aydede", "Eşref", "Hande", "Diken", "Karagöz", "Güleryüz", Cümhuriyyətdən sonra yayım həyatına başlayan "Akbaba", "Amcabey", "Tef" kimi dərgilərin tədqiqata cəlb olunmasını satirik mətbuat tarixinin araşdırılması istiqamətində mühüm addım adlandırmaq olar. Satirik dərgilər haqqında yazılmış

monoqrafiyalarda müxalifətin ölkənin gündəlik həyatında baş verən ictimai-siyasi hadisələrə münasibəti məsələlərinə xüsusi yer verilmişdir. Mətbuat tarixi ilə bağlı tədqiqatlarda daha çox qəzet və jurnallarda əksini tapmış problemlərin analizinə diqqət yetirilmişdir. Araşdırmalarda, əsasən, iqtidar-müxalifət qarşıdurması ön plana çəkilmiş, satiranin estetik yöndən şərhi tədqiqat mövzusu kimi seçilməmişdir. Bu baxımdan İsmayıl Gündoğdunun "Sultan Abdülaziz Döneminde Mizah Basını Yoluyla Muhalefet", Levent Cantekin "Bir Alt Kültür Olarak Mizah Mediyası; Markopaşa Örneği" (1999), Hamdi Özdişin "Tanzimat Devri Mizah Qazetelerinde Batılılaşma ve Toplumsal Siyasal Eleştiri" (2004 ), Özgür Umut Haşafçının "Toplumsal Muhalefet ve Mizah Dergileri: Leman Dergisi" (2007) kimi araşdırmalarda satirik dərgilər estetik yöndən deyil, məhz ictimai və siyasi tənqidin qabardılması yolu ilə təhlilə cəlb edilmişdir .

Satirik mətbuat orqanlarında çeşidli mövzular axtaran Kazım Yetişin "1869 -1876 Yılları Arasında Yayınlanan Mizah Qazetelerinde Tiyatro" (1994) adlı əsəri yalnız satirik dərgilərdə yer alan mövzularla əlaqəli araşdırmadır .

Satirik dərgilərdən kənarda satirik əsərlər yazan şair və yazıçılar və yaxud əsərlərində satirik və yumoristik çalarlardan yararlanan yazarlar haqqında aparılan tədqiqatlar da diqqəti cəlb edir. Mustafa Apaydının "Türk Hiciv Edebiyyatında Ziya Paşa" (1993), Şerife Çağının "Eşrefin Şiiri ve Türk Hiciv Edebiyatındaki Yeri" (2004), Fatih Yalçının "Tahsin Yücelin Romanlarında Yabancılaşma ve İroni" (2010), Dalya Altuğun "Turqut Özakman Tiyatrosunda Mizah ve Eleştirel Yaklaşım" (1989), Semih Zekanın "Hüseyn Rahmi Gürpinarın Roman ve Hikayelerinde Mizah" (2004), Arzu Karadikmenin "İroni Kavramı ve Ahmet Hamdi Tanpınarın Eserlerinde İroni" (2005), Kanat Rysbayın "Refik Halit Karayın Eserlerinde Hiciv ve Mizah" (2007), Sultan Sarının "Neyzen Tevfik Kolaylının Hayatı ve Eserleri Üzerinde Bir İnceleme" (2010) kimi araşdırmaralarda Türk satirik şair və yazıçılarının bu yönümlü əsərlərinin bütünlüklə olmasa da, bir qisminin əsas parametrləri və istiqamətləri müəyyənləşdirilmişdir.

Türk yumor və satirasının ən dəyərli örnəklərindən biri olan Direktor Ali Beyin satirik anlamlar sözlüyü "Lehcetü'l-Hakayık" əsasında Tuğba Yıldırımın yazdığı "Lehcetü'l-Hakayık ta Mizah Söylemi" (2006) adlı tədqiqatı öz orijinallığı ilə seçilir. Gülşah Akbulutun "Çağdaş Türk Şiirinde Gülmece" (2010) adlı araşdırmasında bəzi satirik şeirlər doğru təhlilini tapmasa da, çağdaş şeirdə satiranın yeri və mövqeyi haqqında müəyyən təsbitlərə nail olunmuşdur.

Adnan Menderes dövründə yeni mərhələyə daxil olan satirik mətbuat Türkiyə həyatında baş verən ictimai-siyasi hadisələrin önündə getmiş, müxtəlif partiyaların mövqeyindən çıxış etmiş, iqtidarla xalq arasında tənzimləyici rol oynamışdır. Bu dövrdə nəşr edilən "Karakedi", "Tef", "Dolmuş", "Qırğır", "Akbaba", "Temmuz" və başqa satirik dərgilər xalqın istək və arzularının ifadəçisinə çevrilmişdir. Bu gün də fəaliyyətini davam etdirən "Leman", "Penguen", "Uykusuz" kimi dərgilər, çağdaş Türkiyədə gedən prosesləri ardıcıl və sistemli şəkildə izləyir, çoxsaylı oxucuları ölkə həyatında hökm sürən real hadisələrdən xəbərdar edir və geniş ictimaiyyəti mövcud nöqsanların aradan qaldırılmasında fəal mübarizəyə səsləyir.

## Ədəbiyyat / *References*


(1996). *Temmuz, №23.*

Apaydın, M. (2007). Tanzimattan Sonra Mizah ve Hicv. *Türk Edebiyyatı Tarihi,Cilt III.* içinde İstanbul: Kültür ve Turizm Bakanlığı Yayınları.

Atnur, G. (2016). Erzurumda Yerel Bir Mizah Dergisi: Temmuz. *Türk Edebiyatında Mizah Sempozyumu.*

Kahraman, A. (2005). Mizah. *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi.* içinde http://islam-portal.com/ansiklopedi/dia/ayrmetin.php-idno=d300210.htm adresinden alındı

Kayalı, K. (1994). *Keşke Herkes Papağan Olsa.* Ankara: Ayyıldız Yayınları.

Öngören, F. (1998). *Cumhuriyetin 75.Yılında Türk Mizah ve Hicvi.* Ankara: Türkiye İş Bankası, Kültür Yayınları.

Özdemir, N. (2008). *Medya Kültür ve Edebiyat.* Ankara: Geleneksel Yayıncılık.

# ТРАДИЦИИ «МОЛЛЫ НАСРЕДДИНА» В ТУРЕЦКОЙ САТИРИЧЕСКОЙ ПРЕССЕ 50-Х ГОДОВ И НА БОЛЕЕ ПОЗДНИХ ЭТАПАХ

**Гюльбениз Бабаева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: gulbeniz-babayeva@mail.ru

**Резюме.** В статье говорится о прошедшей более 150 лет исторического пути турецкой сатирической печати, вступившей в новый этап после 50-х годов, и продолжении в публиковавшихся сатирических журналах традиций «Молла Насреддина». В центр внимания включены вопросы влияния сатирического стиля, выразительной манеры, тем и проблематики первого сатирического издания Азербайджана на публиковавшиеся в Турции многочисленные сатирические журналы. В 50-х годов сатирическая печать Турции шла во главе происходивших общественно-политических процессов, выступала согласно позициям различных партий и выступала в роли регулятора отношений между властью и народом. Публиковавшиеся в этот период «Каракеди», «Теф», «Долмуш», «Гыргыр», «Акбаба», «Теммуз» и другие сатирические журналы продолжали основную сатирическую линию журнала «Молла Насреддин» и служили выразителями ожиданий и намерений народа. Журналы «Леман», «Пенгвин», «Уйкусуз» и сегодня последовательно и системно отслеживают происходящие в Турции процессы, знакомят многочисленных читателей с реальными важнейшими событиями в жизни страны и призывают широкие общественные круги к усиленной борьбе за искоренение соответствующих недостатков.
**Ключевые слова:** турецкая сатирическая печать, журнал «Молла Насреддин», журналы «Акбаба», «Каракеди», журнал «Уйкусуз»